ədalət.-2018.-2 may.-S.8.



Vahid
Əlioğlu

## UNUDA BİLMİRƏM

Elə bil su kimi axıram hər gün,
Gah da şimşək olub çaxıram hər gün,
Getdiyin yollara baxıram hər gün,
Neyləyim, unuda bilmirəm səni.

Bu uzun yolları yorub qalmışam,
Hələ də yerimdə durub qalmışam,
Boynumu yetim tək burub qalmışam,
Neyləyim, unuda bilmirəm səni.

Dərdli ürəklərin mənəm sirdaşı,
Həsrətin yanğısı əridər daşı.
Hələ qurumayıb gözümün yaşı,
Neyləyim, unuda bilmirəm səni.

Məni qəm oduna salıb getmisən,
Ruhumu saz kimi çalıb getmisən,
Yuxumu gözümdən alıb getmisən,
Neyləyim, unuda bilmirəm səni.

Cana yığılmışam təklik əlindən,
Yay tək sıxılmışam təklik əlindən.
Vahidəm, özümü unutsam da mən,
Neyləyim, unuda bilmirəm səni.

## SƏCDƏGAHDI, VƏTƏNDİ

Dərdi canda az daşı,
Bir qurdala yaddaşı.
Yurdun hər qara daşı,
Səcdəgahdı, Vətəndi!

Bircə ovuc torpaq da,
Evdə yanan çıraq da,
Quru ot da, yarpaq da,
Səcdəgahdı, Vətəndi!

Gün çıxıb, batan yer də,
Babalar yatan yerdə,
Hər ocaq da, hər pir də,
Səcdəgahdı, Vətəndi!

Zirvəsi qarlı dağlar,
Şır-şır axan bulaqlar,
Harda ocaq yeri var,
Səcdəgahdı, Vətəndi!

## DÜNYANIN

Çox düşmüşəm dumana da, çənə də,
Bu həyatdı, ağrı verib mənə də.
Çox çalışdım, çox düşündüm, yenə də
Açammadım bir sirrini dünyanın.

Mərd yaşayın, haram tikə yeməyin,
Məğrur olun, heç kimə baş əyməyin.
Mən güləndə bəxtəvərəm, deməyin,
Çox görmüşəm dərd-sərini dünyanın.

Kim nə bilir, sabah nələr olacaq?
İnsan ömrü bir çiçəkdi, solacaq.
Dünya malı bu dünyada qalacaq,
Neyləyirəm, mən zərini dünyanın.

Ölüm haqdı, bu əzəldən qaydadı,
İnsan gah yasdadı, gah da toydadı.
Dərdi, qəmi elə özü boydadı,
Kim duyubdu kədərini dünyanın?

Dərd gələndə zülüm-zülüm ağlama,
Əsəbləşmə, dəniz kimi çağlama.
Vahid deyir, dünyaya bel bağlama,
Çox içmişəm zəhərini dünyanın.

## ÖMRÜ HALAL YAŞA, ÖMRÜ DÜZ YAŞA

Əslini unutma, hər gün sal yada,
Açmaynan sirrini nə dosta, yada.
Boş yerə xərcləmə ömrü dünyada,
Ömrü halal yaşa, ömrü düz yaşa.

Çətinə düşsən də, dara düşsən də,
Yağışa düşsən də, qara düşsən də,
Çəkilməz əzabla sən görüşsən də,
Hər dərdə, kədərə, qəmə döz, yaşa.

Hər zaman yaxşılıq etməyə çalış,
Heç kimə əl açma, zəhmətə alış.
Hər kəsin qəlbini duymağa çalış,
Hər kəsin qəlbinə sal bir iz, yaşa.

Ay Vahid, həyatda bir ölüm haqdı,
Haqq sözü zülmətdə yanan çıraqdı.
Bu fani dünyada hamı qonaqdı,
İstər əlli yaşa, istər yüz yaşa.

## BƏS DEYİLMİ

Dar günümdə çoxu qaçıb,
Özgə yerdə işıq saçıb.
Hər bir kəsə ürək açıb,
İnanmışam, bəs deyilmi?

Hər gün haqdan söz salmışam,
Çox ocağa köz salmışam.
Öz içimdən od almışam,
Çox yanmışam, bəs deyilmi?

Bal da bəzən zəhər dadır,
"Dostlar" məni çox aldadıb.
Hər adama əl uzadıb,
Dost sanmışam, bəs deyilmi?

Vahid, ürək dostun hanı?
İnsanları yaxşı tanı.
Neylim, məni anmayanı,
Hey anmışam, bəs deyilmi?

## GEDİR

Dayan, bir az, əsmə külək,
Qoy doyunca deyib, gülək.
Ömrümüzü zalım fələk,
Bir ot kimi biçib, gedir.

Azmı günah eyləyirik?
Heç bilmirik neyləyirik!
Biz ki, bəxti seçməliyik,
Bu bəxt bizi seçib, gedir.

Mən nə qədər tənha qalım,
Gəl, qapımı döy, ay zalım!
Bir də gördün eşq xəyalım,
Uzaqlara uçub, gedir.

Qoru-ürək sərvətini,
Az çək yarın həsrətini.
Vahid, əcəl şərbətini,
Hər bir insan içib, gedir.